# SOSİAL-SİYASİ İNFORMASİYA RESURSLARI ÜZRƏ İKİNCİ DƏRƏCƏLİ VƏSAİTLƏRİN TƏHLİLİ

**Fidan Nağıyeva**

*BDU, Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı*

Müasir dövrdə sosial-siyasi informasiya resursları üzrə vəsaitlər sistemi inkişaf etmiş və cəmiyyətin informasiya təminatında mühüm struktur obyektinə çevrilmişdir. Məlumdur ki, sosial-siyasi informasiya resursları sosial-siyasi elmlərin sayəsində inkişaf edir və yayılır. Sosial-siyasi elmlərə tarix, fəlsəfə, pedaqogika, dilçilik, dövlət və hüquq, iqtisadiyyat və s. bu kimi elmlər daxildir.

Sosial-siyasi informasiya resurslarının inkşafında biblioqrafik informasiya mənbələrinin (ənənəvi biblioqrafik göstəricilər nəzərdə tutulur) rolu olduqca böyükdür. Müxtəlif formalarda mövcud olan biblioqrafik informasiya mənbələri sənədlərin özlərini deyil, onların eyniləşdirilmiş və axtarışları üçün kifayət edən standart modellərini əks etdirir. Nəticə etibarı ilə onlar, ilkin informasiya mənbəyi hesab edilən sənədlərin özlərini deyil, onların haqqında biblioqrafik hesab edilən informasiyanı cəmiyyət üzvlərinə çatdırır.

Sosial-siyasi elmlərin mühüm bir hissəsini tarix üzrə informasiya resursları təşkil edir. Tarix elmi qədim və çoxşaxəli elm sahəsi olduğuna görə bu elm sahəsi ilə bağlı ədəbiyyat axını kifayət qədər çoxdur. Belə biblioqrafik vəsaitlərdən biri də Azərbaycanın zəngin ədəbi-mədəni irsə, yüksək sənətkarlıq məktəblərinə, şücaətli igidlərə və mütəfəkkir, tarixi şəxsiyyətlərə, füsünkar təbiətə, keşməkeşli tarixə malik olan Şəki bölgəsinə həsr olunmuş "Şəki" adlı mövzu biblioqrafik göstəricisidir. Biblioqrafik vəsait 2019-cu ildə 552 səhifə həcmində çap olunmuşdur.

AMEA-nın həqiqi üzvü Yaqub Mahmudovun ideya müəllifliyi, elmi məsləhətçiliyi ilə ərsəyə gəlmiş bu göstərici Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində "daha da ciddi, təsirli və gözəl nəticələr əldə etmək " yolunda atılmış uğurlu addımların tarixi güzgüsüdür.

Tarix-diyarşünaslıq xarakteri daşıyan bu vəsait Azərbaycan biblioqrafiyaşünaslığında ilk elmi informativ-biblioqrafik nəşr hesab olunur. Biblioqrafik vəsait 10 hissədən ibarət olmaqla tərtib olunmuşdur. Hər bir fəsildə əvvəlcə Azərbaycan dilində, sonra isə rus dilində məlumatlar yerləşdirilmişdir. Nəşrdə Şəkinin tarixinə, arxeologiya və etnoqrafiyasına, coğrafiyasına, ədəbi-mədəni, siyasi-iqtisadi, elmi həyatına və müasir inkişaf səviyyəsinə dair materiallar öz əksini tapmışdır. Daxil edilən materiallar nəşr növlərinə görə müxtəlif xarakterli materialları əhatə edir. Regionun tarixini, mühitini, sosial-siyasi həyatını, ədəbi-mədəni mühitini, sosial-iqtisadi inkişaf mərhələlərini və s. izləmək məqsədi ilə müxtəsər oçerklərlə təqdim edilən biblioqrafik siyahılar xronoloji ardıcıllıqla tədqim edilmişdir.





Sosial-siyasi informasiya resurslarının çox geniş sahələrindən biri də dilçiliyə aid resurslardır. Dilçilik elmi ayrı-ayrı tədqiqat müəssisələrində tədqiq edilib öyrənilir və geniş şəkildə tədris olunur. Müasir Azərbaycan ədəbi dilinin hazırkı yüksək inkşaf səviyyəsi uzun əsrlərin məhsuludur. Bu sahədə müxtəlif illərdə dövlət dilimizin müxtəlif problemlərinə, müxtəlif məsələlərə dair vəsaitlər çap olunmuşdur. Bu cür vəsaitlərdən biri də Nərgiz Hacıyevanın müəlifi olduğu "Nitq mədəniyyəti" adlı biblioqrafiyadır. Biblioqrafik vəsait 2015 ci ildə "Elm və təhsil" nəşriyyatında 436 səhifə həcmində çap olunmuşdur.

Sosial-siyasi elmlərin mühüm tərkib hissələrindən biri də iqtisadiyyat üzrə ədəbiyyat təşkil edir. Azərbaycanda iqtisadiyyat üzrə sənəd axını XX əsrin əvvəllərindən daha da artmışdır. Azərbaycan Respublikasının bazar iqtisadiyyatı sisteminə keçməsi zəminində elmi iqtisadi biliklərə, elmi iqtisadi təfəkkürə kifayət qədər malik olmaq çox mühüm əhəmiyyət kəsb edir. İqtisadiyyat sahəsində müxtəlif dövrlərdə mövzu, şəxsi biblioqrafik göstəricilər çap olunmuşdur. Belə biblioqrafik göstəricilərdən biri də görkəmli iqtisadçı alim, iqtisad elmləri doktoru, Azərbaycan iqtisadi fikir tarixində özünəməxsus yeri olan, Respublikada çoxsahəli iqtisad elminin inkişafına böyük xidmətlər göstərmiş iqtisadçı alim Bəhmən Yusifoğlu Axundova həsr edilmiş "Bəhmən Yusifoğlu Axundov" adlı biblioqrafik göstəricidir. "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə çap olunmuş bu biblioqrafik vəsait 2011-ci ildə 83 səhifə həcmində çap olunmuşdur. Biblioqrafiyada alimin həyat və fəaliyyətini əks etdirən qısa oçerk və həyatının əsas tarixləri verilmişdir. Biblioqrafik vəsaitə daxil edilmiş materiallar xronoloji qaydada yerləşdirilmişdir. Biblioqrafiyada B.Y.Axundovun redaktə etdiyi əsərlər, həyatı və ictimai fəaliyyəti, əsərlər haqqında olan materiallar, dissertasiyalara elmi rəhbərliyi və opponentliyini əks etdirən bölmələr vardır.

Biblioqrafik vəsaitin "Əsərlərinin biblioqrafiyası" adlı hissəsində 67 vəsaitin biblioqrafik təsviri verilmişdir. "Redaktə etdiyi əsərlər" adlı hissədə müəllifin redaktə etmiş olduğu 4 əsərin təsviri yerləşdirilmişdir. Biblioqrafiyanın "Həyatı, ictimai fəaliyyəti və əsərləri haqqında" adlı hissəsində isə 26 vəsait haqqında məlumat yerləşdirilmişdir. Biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədi ilə alimin əsərlərinin, müştərək müəlliflərin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri verilmişdir.